# Dövlət Sərhəd Xidmətində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi iftixar hissi ilə qeyd olundu





Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibəti ilə silsilə tədbirlər keçirilir.

Tədbirlərdə mürəkkəb siyasi dövrdə cərəyan edən, Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılmış, xalqımızın milli oyanışının məntiqi yekunu olaraq ilk demokratik dövlətin yaranması və İstiqlal Bəyannaməsinin qəbul edilməsi haqqında ətraflı məlumatlar verilmiş, bu əlamətdar hadisənin təkcə Azərbaycan üçün deyil, bütün Şərq dünyası üçün mühüm əhəmiyyət kəsb edildiyi vurğulanmışdır.

Respublika Günü münasibəti ilə Dövlət Sərhəd Xidmətinin Aparatında, Sahil Mühafizəsində və Azərbaycan İstiqlal Muzeyində keçirilən tədbirlərdə Şərqin və türk dünyasının ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi, dövlət atributlarının qəbul olunması, Azərbaycan dilinin dövlət dili elan edilməsi, Milli Ordumuzun yaradılması, dövlət sərhədlərinin və təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən işlər iftixar hissi ilə qeyd olunmuşdur.

Tədbirlərdə Xalq Cümhuriyyətinin varisi olan müasir, müstəqil Azərbaycan dövlətinin yaranmasında, möhkəmlənməsində və dünya dövlətləri arasında layiqli yer tutmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri böyük minnətdarlıq hissi ilə vurğulanmışdır.

Ümummilli lider Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi olaraq qeyd olunmuşdur. “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi bir daha milli dövlətçilik tariximizə olan hörmət və ehtiramın bariz nümunəsi olması vurğulanmışdır.

Tədbirlərdə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileynə həsr edilmiş sənədli filmlər nümayiş etdirilmişdir.

***“Azərbaycan”***

Azərbaycan.- 2018.- 27 may.- S.10.